UOT 78.03
https://doi.org/10.59849/2311-8482.2024.1.156

MARAL ƏSƏDOVA*

# AZƏRBAYCAN MUSİQİSİNİN BEYNƏLXALQ ALƏMDƏ TƏBLİĞİ İSTİQAMƏTLƏRİ

*Məqalə Azərbaycan musiqi mədəniyyətinin beynəlxalq aləmdə təbliği istiqamətlərinin öyrənilməsinə həsr edilmişdir. Bu məsələ əsasən üç istiqaməti əhatə edir: 1. Azərbaycan şifahi ənənəli musiqisinin dünyada təbliği; 2. Azərbaycan bəstəkarlarının yaradıcılığının təbliği; 3, Musiqi mədəniyyətinin beynəlxalq əlaqələrinin inkişafında musiqi festivallarının rolu. Müəllif bu istiqamətlərdə araşdırmalar apararaq, Azərbaycan musiqisinin dünyada tanıdılmasının mühüm əhəmiyyətini açıqlamışdır. Birinci istiqamətlə əlaqədar olaraq, müəllif Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyada tanıdılmasında bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlığın rolu haqqında danışılır. İkinci istiqamətlə bağlı, Azərbaycan milli bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar, musiqişünas, pedaqoq, musiqi ictimai xadim Üzeyir Hacıbəylinin yaradıcılığı nümunəsində Azərbaycan musiqisinin qarşılıqlı mədəni əlaqələrinin inkişafı və beynəlxalq aləmdə tanınması məsələlərini nəzərdən keçirmişdir. Üçüncü istiqamətin açıqlanması üçün müəllif Azərbaycanda və xarici ölkələrdə keçirilən musiqi festivallarını işıqlandırmışdır. Bütün bunlar Azərbaycan mədəniyyətinin inkişafına və dünyada tanıdılmasına xidmət edir və mühüm əhəmiyyətə malikdir.*

***Açar sözlər:*** *Musiqi, mədəniyyət, beynəlxalq əlaqələr, bəstəkar, festivallar.*

## Giriş

Musiqi sənətinin inkişafı mədəni əlaqələr olmadan mümkün deyil, belə ki, musiqinin yaranması peşəkar mühitdə, müəlliflərin və ifaçıların qarşılıqlı ünsiyyəti vasitəsilə həyata keçirilərək dinləyici auditoriyasına təqdim olunur və bu proses bir-birilə əlaqədar olan yaradıcılıq mərhələlərindən ibarətdir. Əlbəttə ki, müasir dövrdə texniki vasitələrin və informasiya texnologiyalarının inkişafı musiqi sahəsində qarşılıqlı mədəni əlaqələrin genişləndirilməsində mühüm rol oynayır. Dünya musiqi təcrübəsində xalqlararası qarşılıqlı əlaqələrin inkişafı musiqi mədəniyyətinin tərəqqisinə təkan verən amillərdən biridir. Musiqi mədəniyyətində beynəlxalq əlaqələrin öyrənilməsi məsələləri həm ənənəvi musiqi sahəsində, həm də bəstəkar yaradıcılığı sahəsində aparıla bilər ki, bunlar da mədəniyyətşünaslıqda xüsusi maraq kəsb edir.

## Əsas təhlil

Azərbaycan mədəniyyətində şifahi ənənəli musiqi irsinin qorunması, inkişafı və dünyada tanıdılması mühüm əhəmiyyətli məsələdir. Bu baxımdan Azərbaycan dövlətinin beynəlxalq təşkilatlarla əməkdaşlığı böyük rola malikdir. Müstəqillik dövründə Azərbaycan Respublikası 30-dan artıq beynəlxalq və regional təşkilatlara üzv olmuşdur, bunlardan: BMT, UNESCO, İSESCO, TÜRKSOY, UNİSEF və s. təşkilatları qeyd etmək olar. Azərbaycanın coğrafi vəziyyəti və xüsusilə respublikada bütün nəqliyyat vasitələrinin və əsas yolların (hava, dəmiryol, dəniz və avtomobil) yaxşı inkişaf etməsini nəzərə alsaq, onun Böyük İpək Yolundakı rolunun aparıcı olduğunu aydın görmək olar. Böyük İpək Yolunun bərpası, yeni nəqliyyat dəhlizi təkcə iqtisadi yox, həm də mədəni əlaqələrin intensivləşməsinə şərait yaradır, Azərbaycanın dünya miqyasında nüfuzunun, gücünün artmasına təkan verir.

Mənəvi mədəniyyətin rolunun və mənasının artması Azərbaycan Respublikasının mədəniyyət siyasətinin formalaşması və reallaşması üçün ölkənin dünyəvi təcrübəsini və milli özünəməxsusluğunu nəzərə alaraq yeni yanaşma və modellərin axtarışını tələb edir. Bütün bunlar mədəniyyət siyasətinin öyrənilməsi aspektində elmi tədqiqatların aparılmasına yol açır. Bu baxımdan mədəniyyət siyasətinin əsas istiqamətlərini özündə əks etdirən dövlət proqramının və sənədlərinin öyrənilməsi vacibdir.

Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində qurduğu geniş əməkdaşlıq əlaqələri ölkəmizin milli-mədəni ənənələrə sadiq qalaraq dünya sivilizasiyasına inteqrasiyası üçün əlverişli şərait yaratmışdır. Bu baxımdan UNESCO ilə əlaqələr önəmlidir.

Azərbaycanla bağlı UNESCO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramı çərçivəsində beynəlxalq miqyaslı tədbirlər həyata keçirilmişdir. Azərbaycanın bir sıra maddi-mənəvi dəyərləri UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıyasına daxil edilmişdir. Bunlardan Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, simli musiqi aləti tarın hazırlanma və ifaçılıq sənəti, kamança simli musiqi alətinin hazırlanma və ifaçılıq sənəti, Yallı (Köçəri, Tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri, Dədə Qorqud irsi dastan mədəniyyəti, Ənənəvi xalçaçılıq sənəti, Qadın ipək baş örtüyü kələğayının hazırlanması və simvolikası, Novruz bayramı və s. qeyd etmək olar.

Müasir dövrdə Azərbaycan mədəniyyətinin inkişafında əsas cəhətlərdən biri ölkənin mədəni sərvətlərinin dünyada tanıdılması ilə bağlıdır. Musiqi mədəniyyəti sahəsində xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri, bəstəkarların və musiqi ifaçılarının qastrolları, musiqi təhsili sahəsində mübadilə, beynəlxalq festival və müsabiqələrin keçirilməsi mühüm əhəmiyyətə malikdir. Müasir dövrdə konsert, festival və müsabiqələrin əsas təşkilatçıları kimi Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi çıxış edir.

Azərbaycan musiqisinin inkişafında beynəlxalq əlaqələrin genişlənməsi məsələsini bəstəkar yaradıcılığı timsalında da izləmək olar. Xüsusilə XX əsrdə Azərbaycan bəstəkarlıq məktəbinin təşəkkülü dövründə dahi bəstəkar, musiqişünas, pedaqoq, dramaturq, publisist, musiqi ictimai xadim Üzeyir Hacıbəylinin yaradıcı fəaliyyəti bunun bariz nümunəsidir.

Ü.Hacıbəylinin musiqi üslubunun formalaşmasında Şərq və Qərb musiqi ənənələrinin qovuşdurulması mühüm əhəmiyyətə malikdir. O, bütün həyatı boyu xalqlar arasında qarşılıqlı mədəni əlaqələrin möhkəmləndirilməsinin tərəfdarı olmuş, bütün yaradıcılığı və ictimai fəaliyyəti ilə buna yardım etməyə çalışmışdır.

Ü.Hacıbəylinin Şərqdə ilk opera olan "Leyli və Məcnun" (1908) operasından başlayaraq, digər musiqili-səhnə əsərləri – "Əsli və Kərəm" (1912), "Koroğlu" (1937) operaları, "O olmasın, bu olsun" (1910), "Arşın mal alan" (1913) musiqili komediyalarının şöhrəti Vətəninin hüdudlarını aşaraq, yarandığı vaxtdan bu günə kimi bir çox ölkələrdə məşhurlaşmış, tamaşaya qoyulmuş və xalqlar arasındakı mədəni mübadilənin genişləndirilməsinə təkan vermişdir.

Xüsusilə "Arşın mal alan" əsərinin dünyanın 80-dən artıq dillərinə tərcümə olunaraq, 76 ölkənin 187 teatrının səhnəsində nümayiş olunması, bu əsər üzrə çəkilmiş filmin də eynilə belə məşhurluq qazanması bunu təsdiq edir və bu cür məlumat mütəmadi olaraq artır. Ü.Hacıbəylinin digər əsərlərinin səhnə həyatı ilə bağlı da bir çox faktlar var ki, bu da həmin əsərlərə və ümumiyyətlə Ü.Hacıbəyli yaradıcılığına olan beynəlxalq marağı göstərir. Bu baxımdan, "Koroğlu" operasının "TÜRKSOY" təşkilatının təşəbbüsü ilə bir çox ölkələrin solistlərinin iştirakı ilə səhnələşdirilməsi diqqətəlayiq hadisələrdən biri kimi qeyd olunmalıdır.

1985-ci ildə Ü.Hacıbəylinin 100 illik yubileyi UNESCO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd edilmiş, bir çox ölkələrdə festivallar, konsertlər keçirilmişdir. 2008-ci ildə Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının, 2012-2013-cü illərdə "Arşın mal alan" musiqili komediyasının 100 illiyinin keçirilməsi UNESCO təşkilatının tədbirlər siyahısına daxil edilmişdir ki, bu da həmin əsərlərin beynəlxalq müstəvidə Azərbaycan musiqi əlaqələrinin genişləndirilməsinə xidmət edən amildir.

Müasir informasiya texnologiyalarının tətbiqi də musiqi mədəniyyətinin beynəlxalq müstəvidə təbliğinə xidmət edən amildir. İnternet məkanında Üzeyir Hacıbəylinin yaradıcılığına, eləcə də musiqi və elmi əsərlərinə həsr olunmuş saytların (uzeyirbook.musigi-dunya.az, arshin.musigi-dunya.az və s.; Üzeyir Hacıbəylinin yaradıcılığına həsr olunmuş saytların müəllifi Tariyel Məmmədovdur) fəaliyyət göstərməsi, "Leyli və Məcnun", "Arşın mal alan", "O olmasın, bu olsun" əsərlərinin müxtəlif incəsənət sahələrində - musiqili teatrda, marionet teatrında, kukla teatrında, kinoda, təsviri sənətdə, heykəltaraşlıqda, xalçaçılıqda və s. təcəssümü sayəsində onların beynəlxalq festivallarda və sərgilərdə nümayişinə şərait yaranır ki, bu da əsərlərin bədii təsir qüvvəsindən irəli gəlir.

Ümumiyyətlə, Ü.Hacıbəyli öz həyatında və yaradıcılığında daim Azərbaycan musiqisinin beynəlxalq əlaqələrinin genişləndirilməsinin tərəfdarı olmuş və bu da onun musiqi xadimlərinə tövsiyələrində öz əksini tapmış, milli musiqinin inkişafına böyük təsir göstərmişdir. Bütün bunların təsdiqini Üzeyir Hacıbəylinin ev-muzeyinin fondlarında, eləcə də bəstəkarının özünün məqalələrində və onun məsləkdaşları və davamçıları olmuş bəstəkarlar nəslinin nümayəndələrinin xatirələrində və fəaliyyətində müşahidə edə bilərik.

Görkəmli bəstəkar F.Əmirov Üzeyir Hacıbəylinin tarixi rolunu açıqlayaraq yazırdı: "Yaxın və Orta Şərq professional musiqisi üçün Ü.Hacıbəylinin yaradıcılığı böyük bir məktəbdir. Bu məktəbi hələ çoxları keçəcək, bu məktəbdən çoxları öyrənəcək". F.Əmirovun fikrincə, bu ölməz sənətkar Azərbaycan xalqının milli şüurunun oyanmasında həqiqətən çox böyük rol oynamışdır. O, Üzeyir bəyi "Azərbaycan professional musiqisinin atası" adlandıraraq yazırdı ki, "o, milli musiqimizə nə qədər bağlı olsa da həmişə irəli baxmış, milli məhdudiyyətə qapanıb qalmamışdır… O, milli və məhz milliliyi ilə ümumbəşəri mahiyyət daşıyan bir sənətin tərəfları idi" [1, s. 63]. F.Əmirov xatırlayırdı ki, Ü.Hacıbəyli gənc bəstəkarlara tövsiyə edirdi: "Ümumi musiqi sənətini öyrənsək, öz milli musiqimizin tərəqqisinə böyük xidmətlər etmiş olarıq… Not sistemi, Avropa musiqi alətləri və musiqi formaları bizim əsrlər boyu yaranmış zəngin, ahəngdar musiqimizi yeni mərhələyə qaldırar, onun dünyaya yayılmaq imkanlarını genişləndirər" [1, s. 63].

Musisqişünas-alim Z.Səfərova Ü.Hacıbəylinin yaradıcılığında milli və ümumbəşəri cəhətlərin vəhdətinə diqqət yetirərək yazır: "Bizim musiqi inkişafında novatorluğu o, Azərbaycan musiqisinin millidən beynəlmiləlı, ümumbəşərə doğru mütərəqqi irəliləməsində görürdü. Yeni dövrü əks etdirən yeni məzmun, yeni formalar və janrlar uğrunda mübarizə edərkən, Ü.Hacıbəyov Azərbaycan musiqisinin beynəlmiləl, ümumbəşəri səslənməsi uğrunda mübarizə aparırdı. Eyni zamanda, Ü.Hacıbəyova görə, Azərbaycan musiqisi bu ümumbəşər, beynəlmiləl səslənməni qazanaraq, özünün milli sifətini itirməyərək, qədim və zəngin ənənələrə əsaslanmalıdır" [2, s. 171].

Üzeyir Hacıbəylinin Azərbaycan musiqisində yaratdığı ənənələrə sədaqət, onun irsinin qorunması və dünyada təbliği müasir dövrdə də Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Bu da dünyanın bir çox ölkələrində Üzeyir bəyin heykəlinin qoyulmasına, onun musiqi əsərlərinin nümayişinə təkan vermişdir. Eyni zamanda, bu cür beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi, Azərbaycan musiqisinin dünya səhnələrində səslənməsi musiqi mədəniyyətimiz vasitəsilə Azərbaycan həqiqətlərinin dünyaya çıtdırılmasında mühüm rol oynayır.

Təsadüfi deyil ki, bəstəkarın anadan olduğu gün – 18 sentyabr "Üzeyir musiqi günü" elan edilərək, musiqi bayramına çevrilmişdir. Bu günü xalqımıza Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. 2010-cu ildən isə hər il mütəmadi olaraq 18-sentyabr – 28 sentyabr tarixlərində Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı əhatə dairəsinin genişliyi ilə diqqəti cəlb edir. Bu festivala dünyanın bir çox ölkələrindən dəvət olunan tanınmış musiqi xadimlərinin – dirijorların, musiqi ifaçılarının və musiqi kollektivlərinin, azərbaycanlı musiqiçiləri ilə birgə ifasında olduqca geniş musiqi proqramları - həm Üzeyir Hacıbəylinin, həm Azərbaycan, həm də xarici ölkə bəstəkarlarının əsərləri səslənir. Ü.Hacıbəylinin əsərləri respublikamızda keçirilən digər beynəlxalq musiqi festivallarının da proqramlarında daim səslənir. Buna misal olaraq, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalını, Qəbələ Beynəlxalq Musiqi Festivalını qeyd edə bilərik ki, Ü.Hacıbəylinin həm səhnə əsərləri, həm də vokal və kamera-instrumental əsərləri müxtəlif təfsirlərdə öz əksini tapır.

Göründüyü kimi, Üzeyir Hacıbəylinin yaradıcılığı həm dövlətimiz, həm də xalqımız tərəfindən qorunur, yaşadılır, təbliğ olunur. Heydər Əliyev Fondunun ən böyük layihələrindən biri olan "Üzeyir dünyası" layihəsində Ü.Hacıbəylinin musiqi əsərlərinin, komediyalarının, elmi və publisistik əsərlərinin tam həcmdə nəşri, səs və videoyazılarının hazırlanması həyata keçirilir (Layihənin baş redaktoru Mehriban Əliyeva, bədii rəhbəri Firəngiz Əlizadədir).

2019-cu ildə Üzeyir Hacıbəyli Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. Əlbəttə ki, bütün bu faktlar Azərbaycan bəstəkarlıq məktəbinin, musiqi mədəniyyətinin inkişafında və dünyada tanıdılmasında Üzeyir Hacıbəylinin böyük rolunu qabarıq göstərir.

Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və beynəlxalq miqyasda mədəni əlaqələrin qurulması baxımından müxtəlif ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi xüsusi məna daşıyır. Bu baxımdan qarşılıqlı olaraq, həm yaxın-uzaq xaricdə Azərbaycan mədəniyyət günlərinin təşkili, həm də Azərbaycanda həmin ölkələrin mədəniyyətinin nümayişi qeyd olunmalıdır. Məsələn, Rusiyada, Gürcüstanda, Almaniyada, Misirdə, Kubada, Mərakeşdə və bir çox başqa ölkələrdə bu cür tədbirlərin təşkili Azərbaycanın mədəniyyət siyasətinin bir hissəsi olaraq, çox önəmlidir.

Bütün bu keçirilən mədəniyyət günləri çərçivəsində xarici ölkə vətəndaşlarına Azərbaycan rəssamlarının əsərlərindən və etnoqrafik miniatürlərindən ibarət sərgilər nümayiş etdirilir, musiqi

ifaçıları tamaşaçılara muğamlardan və bəstəkar əsərlərindən ibarət proqram, rəqs qrupları folklor seçmələrdən ibarət rəqslər təqdim edirlər. Mədəniyyət günləri iştirakçıları milli mədəniyyətin əsas qollarından biri olan Azərbaycan mətbəxi ilə tanış olmaq imkanı qazanırlar.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunan tədbirlərdən Bakıda beynəlxalq festivalların və müsabiqələrin keçirilməsini qeyd etməliyik. Xüsusilə son illərdə Azərbaycan beynəlxalq festivallar ölkəsi kimi tanınmışdır. Ölkədə keçirilən bu kimi tədbirlərdən "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalını, Üzeyir Hacıbəyli adına, Qara Qarayev adına, Dmitri Şostakoviç adına, Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivallarını, Qəbələdə, Şəkidə, Gəncədə keçirilən Beynəlxalq Musiqi Festivallarını, Bakı Beynəlxalq Caz Festivalı, "Jara" Beynəlxalq Estrada Musiqi Festivalını qeyd edə bilərik. Eləcə də Azərbaycanın Qarabağ Zəfərindən sonra Şuşada keçirilən "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalı çox məşhurlaşmışdır. Həmçinin, Vokalçıların Bülbül adına beynəlxalq müsabiqəsi də bu qəbildəndir. Bu tədbirlər çərçivəsində dünyanın bir çox tanınmış musiqi xadimlərinin ölkəmizə gəlişi və Bakının konsert salonlarında çıxışları respublikanın musiqi həyatında böyük canlanma yaratmaqla yanaşı, dünyanın musiqi ictimaiyyəti arasında da geniş rezonans doğurmuşdur [3].

Əlamətdar cəhətlərdən biri də ondan ibarətdir ki, son illər Azərbaycanın Qarabağdakı qələbəsindən sonra, Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi ilə bu şəhərin mədəni həyatı canlanmış, Şuşa möhtəşəm festival və müsabiqələrə ev sahibliyi edən poeziya və musiqi mərkəzinə çevrilmişdir. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər çərçivəsində dünyanın bir çox tanınmış musiqi xadimlərinin ölkəmizə gəlişi və Bakının, Şuşanın və Azərbaycanın digər şəhərlərinin konsert salonlarında çıxışları respublikanın musiqi həyatında böyük canlanma yaratmaqla yanaşı, dünyanın musiqi ictimaiyyəti arasında da geniş rezonans doğurmuşdur.

Bütün bu festivalların məramı və məqsədi müxtəlif olduğu kimi, onların proqramları da rəngarəngdir. Beynəlxalq Musiqi Festivallarında Azərbaycan və Avropa klassik musiqisi, müasir bəstəkarlıq əsərləri, muğam, caz, estrada və s. musiqi sahələri əhatə olunur. Bütün bunlar xalqlar arasındakı mədəni əlaqələri genişləndirməkdən, musiqini xalqlararası ünsiyyət vasitəsinə çevirməkdən ibarətdir.

**Nəticə**

Müasir dövrdə mədəniyyətin qarşılıqlı əlaqələrinin miqyasının genişləndirilməsi inkişafın zəruri şərtlərindən birinə çevrilmişdir. Xalqlar arasında geniş əlaqələr və müasir əlaqə vasitələrinin inkişafı informasiya mübadiləsinin imkanlarını asanlaşdırır. Hazırda dünyanın hər bir guşəsində ətraf aləmlə əlaqələrin qurulması bəşər mədəniyyətinin təsirinin yayılmasına imkan yaradır. Bunun sayəsində insanların mədəni əlaqələr sahəsində əldə etdiyi nailiyyətlər bu sahədə beynəlxalq əməkdaşlığa yol açır. Belə ki, məhz mədəniyyət müxtəlif millətlərə mənsub, dil və dini fərqləri olan, müxtəlif yaş həddinə və peşəkarlığa malik insanların heç bir sərhədsiz, tamamilə qarşılıqlı anlaşma şəraitində ünsiyyət vasitəsinə çevrilmişdir.

## ƏDƏBİYYAT

1.Əmirov F.C. Musiqi aləmində. Bakı, 1983. 270 s.
2.Səfərova Z.Y. Üzeyir Hacıbəyov yaradıcılığında nəzəri və estetik problemlər. Bakı, Elm, 1985. 208 s.
3. Heydər Əliyev Fondunun rəsmi saytı. [Elektron resurs] / URL: http://www.heydar-aliyev-foundation.org

***Üzeyir Hacıbəyli adına Bakı**
***Musiqi Akademiyasının dissertantı***
***e-mail: maralhasanova@gmail.com***

**Maral Asadova**

## PROMOTION DIRECTIONS OF AZERBAIJAN MUSIC IN THE INTERNATIONAL WORLD

The article is devoted to the study of the directions of promotion of Azerbaijani musical culture in the international arena. This issue mainly covers three areas: 1. Promotion of Azerbaijani oral traditional music in the world; 2. Promotion of the creativity of Azerbaijani composers; 3, the role of music festivals in the development of international relations of musical culture. The author, conducting research in these areas, stressed the importance of popularizing Azerbaijani music in the world. In connection with the first direction, the author speaks about the role of cooperation with a number of international organizations in promoting the national and spiritual values of Azerbaijan in the world. In connection with the second direction, using the example of the work of the founder of the Azerbaijan National School of composition, a brilliant composer, musicologist, teacher, musical public figure Uzeyir Hajibeyli, he considered the development of mutual cultural ties of Azerbaijani music and its recognition at the international level. To reveal the third direction, the author covered music festivals held in Azerbaijan and abroad. All this serves the development and popularization of Azerbaijani culture in the world and is of great importance.

**Keywords:** *music, culture, international relations, composer, festivals.*

**Марал Асадова**

## НАПРАВЛЕНИЯ ПРОДВИЖЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКИ В МЕЖДУНАРОДНОМ МИРЕ

Статья посвящена изучению направлений продвижения азербайджанской музыкальной культуры на международной арене. Этот вопрос в основном охватывает три направления: 1. Пропаганда азербайджанской устной традиционной музыки в мире; 2. Пропаганда творчества азербайджанских композиторов; 3, роль музыкальных фестивалей в развитии международных связей музыкальной культуры. Автор, проводя исследования в этих направлениях, подчеркнул важное значение популяризации азербайджанской музыки в мире. В связи с первым направлением, автор говорит о роли сотрудничества с рядом международных организаций в продвижении национально-духовных ценностей Азербайджана в мире. В связи со вторым направлением, на примере творчества основателя азербайджанской национальной композиторской школы, гениального композитора, музыковеда, педагога, музыкального общественного деятеля Узеира Гаджибейли, он рассмотрел вопросы развития взаимных культурных связей азербайджанской музыки и ее признания на международном уровне. Для раскрытия третьего направления автор освещал музыкальные фестивали, проводимые в Азербайджане и за рубежом. Все это служит развитию и популяризации азербайджанской культуры в мире и имеет важное значение.

**Ключевые слова:** *музыка, культура, международные отношения, композитор, фестивали.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.01.2024**
**Son daxilolma tarixi:13.02.2024**